# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 281** **Bakı şəhəri 24 may 2024-cü il**

**"Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli 103 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli 103 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 1, maddə 78) ilə təsdiq edilmiş 4 nömrəli əlavə - "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrində, həmçinin ağıldankəm uşaqlar üçün internat evlərində və Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin "DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətində vətəndaşların qida normaları"nda cədvəldən sonrakı mətnin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində və digər reabilitasiya müəssisələrində, Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin "DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətində (gün ərzində bir dəfə nahar zamanı yeməklə təmin olunma nəzərə alınmaqla) xidmətə götürülmüş şəxslərin qidalanması bu Əlavə ilə müəyyən edilmiş normalara uyğun (böyüklər üçün 3-cü sütun, uşaqlar üçün 6-cı sütun) təmin edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti .- 2024.- 26 may, № 108.- S.8.